*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 93-97* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.93*

# Əhməd bəy Agaoğlunun mətbu fəaliyyətində Zəngəzur gerçəkliyi

**Mahir Qəribov**
Bakı Dövlət Universitetinin doktorantı
E-mail: mahir_garibov@yahoo.com
Orcid id: 0009-0002-8183-5802

**Annotasiya.** XX əsrin əvvəllərində Azərbaycanda milli dövlətçiliyin formalaşmasında mühüm xidmətləri olan şəxsiyyətlərdən biri Əhməd bəy Ağaoğlu olmuşdur. Yüksək ali təhsili və savadı ilə xalqın maariflənməsi yolunda böyük işlər görən Əhməd bəy Ağaoğlu özünün siyasi və jurnalist kimliyi ilə təkcə Qafqaz müsəlmanlarının deyil, həm də ön Asiya və daha geniş coğrafiyada yaşayan türklərin müdafiəçisi olmuşdur. Onun düşüncə tərzində millətçilik hər zaman ön planda olmuşdur. O, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə Zəngəzurdan millət vəkili seçilmişdir. Əhməd bəy Ağaoğlu parlamentdə fəal iştirak etməklə bərabər, Versal Sülh Konfransında iştirak üçün seçilən nümayəndələrdən biri olmuşdur. O, Avropa demokratik dəyərləri həmçinin türk tarix və mədəniyyətini dərindən bilməklə yanaşı milli mədəniyyətin təbliğinə də böyük əhəmiyyət vermişdir.
**Açar sözlər:** Azərbaycan mətbuatı tarixi, “Kaspi” qəzeti, “Həyat” qəzeti, Zəngəzur reallığı, Demokratiya və milli düşüncənin müdafiəçiləri, Ağaoğlunun Parlament fəaliyyəti

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2024; qəbul edilib – 23.09.2024

# Zangezur reality in Ahmed Agaoglu’s press activity

**Mahir Garibov**
Baku State University, Doctoral Student
E-mail: mahir_garibov@yahoo.com
Orcid id: 0009-0002-8183-5802

**Abstract.** At the beginning of the 20th century one of the personalities who played a major role in the formation of independent national statehood in Azerbaijan is Ahmed Agaoglu. Ahmed Agaoglu, who did great work for higher education, public education and development, was a defender not only of Caucasian Muslims, but also of Turks living in a wider geography as a politician and journalist, and nationalism was always at the forefront of his way of thinking. In 1918, he was elected a deputy from Zangezur to the Parliament of the Azerbaijan Democratic Republic. Ahmed Agaoglu, an active participant in the parliament, was one of the representatives sent to participate in the Versailles Peace Conference. He has a deep knowledge of European democratic values and Turkish history and culture, and he also attached great importance to the promotion of national culture.
**Keywords:** Azerbaijani press history, “Kaspi” newspaper, “Hayat” newspaper, Zangezur reality, Defenders of democracy and national thought, Agaoglu's Parliamentary activities

**Article history:** received – 11.09.2024; accepted − 23.09.2024

## Giriş / *Introduction*

Azərbaycanın XX əsr ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan Əhməd bəy Ağaoğlu milli mətbuatın inkişafı sahəsində böyük xidmətlər göstərib. Onun "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində nəşr etdirdiyi elmi-publisistik, ədəbi-tənqidi məqalələrində ictimai-siyasi və jurnalistika görüşləri öz əksini tapıb. Fransız, rus, ingilis, türk dillərini mükəmməl bilən Əhməd bəy nəinki Azərbaycanda Fransa, Türkiyə, Rusiya, İngiltərə və Gürcüstanda nəşr etdirdiyi məqalələrdə özünün liberal düşüncələrini, cəmiyyətin demokratik inkişafı üçün təkliflərini oxuculara çatdırıb.

## Əsas hissə / *Main Part*

Əhməd bəy Ağaoğlu türklərin tarixinə müraciət edərək onların müstəqil dövlət qurduqları dövrləri yada salır və azadlığı insan şüurunun cövhəri adlandırırdı. Əhməd bəyin fikrincə, hər bir insan milli əxlaq və mənəviyyatın müqəddəs normalarından biri olan vətənpərvərlik hissinə malik olmaqla yanaşı Vətən yolunda cəfaya da dözməli, torpağın hər qarışını düşməndən qorumaq üçün öz qanını belə əsirgəməməlidir. Şübhəsiz ki, Vətən də öz övladlarının qayğısına qalmalı, onların bütün hüquqlarını təmin etməlidir. Belə olduqda xalq bir qaya olub düşmən hücumlarının qarşısına sipər çəkər. O, həmçinin "Millət və ziyalılar" mövzusuna toxunaraq yazır ki: "Millətə rəhbərlik edən, onun əməl və arzularına tərcüman olan zümrə ziyalılardır. Bu zümrə adətən millətin bir aynası olur, millət nədirsə, o da odur, o nə isə, millət də odur" [6, s.201].

Əhməd bəy Ağaoğlu 1898-1905-ci illər ərzində "Kaspi" qəzetində 1000-ə yaxın məqalə və felyeton yazıb. Həmin qəzetdə ədəbi-tənqid şöbəsinin müdiri vəzifəsində işləməklə bərabər beynəlxalq və ictimai-siyasi mövzulara həsr olunmuş məqalələrin əksəriyyətinin müəllifi olub. Onun bütün ictimai-siyasi fəaliyyətini öyrənib təhlil etdikdə başlıca bir ideya və fikrin önəmli xarakter daşıdığının təsdiq olunduğunu görürük: "Azadlıq!" [8, s.156]. Əhməd bəy Ağaoğlunun jurnalist olaraq yazdığı məqalələrdə, redaktoru olduğu qəzetlərdə, bu amal xüsusi nəzərə çarpır – demokratik dəyərlərin təbliği və mətbuat azadlığı.

Əhməd bəy Ağaoğlunun ictimai-siyasi fəaliyyəti 1903-cü ildə Bakı dumasına deputat seçilməsi ilə başlayır. O, 6 il ərzində H.Zərdabi ilə yanaşı Bakı şəhər dumasının ən fəal deputatlarından biri olur. Onun çıxaşlarının böyük hissəsi Dumada müsəlmanlarla xristianların nümayəndəliyinin proporsional qaydada, yəni əhalinin sayına uyğun olaraq seçilməsinə həsr olunmuşdu. Mövcud qanunvericiliyə görə müsəlmanların dumada sayı 50 faizdən artıq ola bilməzdi. Həmin qanunvericiliyin dəyişdirilməsi məsələsi ilk dəfə Əhməd bəy Ağaoğlu tərəfindən 1904-cü ilin sonunda qaldırılmışdı, 1905-ci ilin yanvarında isə məhz onun təkidi nəticəsində Bakı şəhər duması rəhbərliyinə müvafiq vəsatət göndərilmişdi [5].

"Həyat" qəzetinin redaktorluğu da Şərq xalqlarının milli azadlıq hərəkatında və mədəni yüksəlişində xüsusi rolu olan Əhməd bəy Ağaoğluna həvalə olunmuşdu. Ancaq Azərbaycanın düşmənlərinin "Həyat"ın fəaliyyətinə son qoymaq üçün apardıqları mübarizə nəticəsində, "Həyat"ın 102-ci sayında Əhməd bəy Ağaoğlu təəssüf ki, bu qəzetdən ayrıldığını bəyan etdi. Mövcud olduğu qısa müddətdə bu mətbu orqan təkcə Qafqazda deyil, Volqaboyunda, Orta Asiyada, İranda və Türkiyədə yayılan "Həyat" geniş məkanda milli oyanışda mühüm rol oynadı.

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin sosial-iqtisadi inkişafı, Rusiyada 1905-1907-ci illər inqilabının təsiri, erməni-azərbaycanlı münasibətlərinin qanlı toqquşmalara gətirib çıxarması ilə nəticələndi. Qarşıdurmaların ən çox yaşandığı bölgələrdən biri Zəngəzur qəzası idi.

1905-ci ilin əvvəllərində ermənilər silahlı dəstə yaradaraq Zəngəzurda müsəlmanların yaşadıqları Sisyan, Dərabas, Böyük Cicimli, Kiçik Cicimli, Ağudi, Vağudi kəndlərinə hücumlar etdilər. Minlərlə müsəlman türk qətlə yetirildi. 1905-cı ilin 17 dekabrında Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə "İrşad" qəzeti nəşrə başlayanda ermənilərin millətimizə qarşı

törətdikləri qanlı soyqırım barədə hər gün xəbərlər yayılırdı. Bu milli qırğınlarda çar hökuməti açıq-açığına ermənilərin yanında idi. Bundan daha da cəsarətlənən ermənilər qarşılarına çıxan azərbaycanlıları, qocaları, cavanları, uşaqları, qadınları amansızlıqla qətlə yetirir, obalarını talan edir, evlərinə od vururdular. Sağ qalanlar doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalırdı. Erməni-türk münaqişəsi haqqında yazılarda İrşadçılar məsələyə böyük həssaslıqla yanaşır, hadisələrin səbəb və səbəbkarlarını o günlərin oxucularına tanıdarkən həm də tarix yazdıqlarını yaddan çıxarmırdılar.

XX əsrin əvvəllərində baş verən milli münaqişədə çarizmin müstəsna "xidmətləri" olduğunu, hökumətdən hər cür yardım alan ermənilərin heç nədən çəkinmədiklərini də irşadçılar real faktlarla diqqətə çatdırırdılar. "İrşad" qəzetində dərc olunmuş məqalələrdən aydın görmək olur ki, XX əsrin əvvəllərində ermənilərin türklərə qarşı törətdikləri faciələrin ardı-arası kəsilmirdi. Erməni terroru Azərbaycanın əksər ərazilərini əhatə etmişdi. "Kömək məqamıdır, qardaşlar!!" başlıqlı yazısında Ə.Ağaoğlu Qarabağ müsəlmanlarına zülm edildiyini bildirərək yazırdı: "Lakin ən böyük müsibət, ən yuzun yandırıcı cəfa və zülm Zəngəzur uyezdinin cəmaətinə oldu. Zəngəzur uyezdi dağlıq bölgə olduğundan dağlar arasında vaqe müsəlman kəndləri hər tərəfdən ermənilər ilə əhatə olunan şuriş əsnasında daşnaksütyunların və kazakların güllə və toplarından nə kömək gələcək yerləri oldu və nə qaçacaq bir məkanları" [4, s.3].

Zəngəzurda kəndlərin yerlə yeksan olduğunu, bacaranların ailəsini götürüb qaçdığını, bacarmayanların – qadın, uşaq, qoca, cavan – hər kəsin xəncərdən keçirildiyini, güllə qurbanı olduğunu qeyd edən Ə.Ağaoğlu qaçıb canlarını qurtaranların ölənlərə həsrət çəkdiklərini yazırdı. Çünki onlar birdəfəlik xilas olmuşdular, qalanlar isə hər dəqiqə, hər saniyə ölürdülər. Yurdlarını, evlərini, qohumlarının çoxunu itirən bu biçarələrin "daha ziraət etməyə də çarələri yoxdur" – deyə bildirən Ə.Ağaoğlu "Kömək məqamidir, qardaşlar!!" adlı yazısında haray çəkirdi: "...İştə bu gün, qardaşlar, kömək vəqtidir!! Və ən əvvəlinci kömək gərək Zəngəzur əhalisinə olsun". Ə.Ağaoğlu soydaşlarını bir-birinin dərdinə yanan, yardım göstərən ermənilərdən nümunə götürməyə səsləyirdi. Problemlərdən biri də bu idi: baş verənlər dünyaya olduğu kimi deyil, ermənilərin xeyrinə çatdırılırdı. Çünki ermənilər və onların tərəfdarları daha fəal təbliğat aparırdılar. Bu məsələdə, şübhəsiz ki, ən çox canfəşanlıq göstərən ermənilərin özləri idi. Onlar yalandan, böhtandan çəkinmirdilər [4, s.3].

1905-1907-ci illərdə Zaqafqaziyada baş verənlərə erməni-türk qarşıdurmasına nə ad vermək olar? Bu suallara ən doğru cavabı, fikrimizcə, "İrşad" qəzeti verirdi: "Buna ixtişaş adı qoymaq olmaz. Bu davadır şərr baqaidə icra olunan bir müharibədir ki, burada bir tərəfin məqsədi digər tərəfi məhv və nabud, digər tərəf isə özünü axırıncı qan damcısını qalanadək müdafiə etməkdir" [3, s.3].

Qeyd edək ki, "İrşad" qəzetinin əsas məqsədi yalnız müxtəlif janrda yazılmış əsərlər vasitəsilə millətin başına gətirilən faciələr, erməni daşnaklarının qəddarlığı, çarizmin siyasi oyunları və digər problemlər haqqında oxucuları məlumatlandırmaq deyildi. İrşadçılar ermənilərin törətdikləri soyqırımın qarşısının alınması, sülh bağlanması istiqamətində böyük işlər görürdülər. Bu qəzetin baş redaktorunun adı doğma millətinin müdafiəçisi kimi həm ermənilərə, həm də çar məmurlarına yaxşı məlum idi. Ə.Ağaoğlu təkcə kəsərli sözü, iti qələmi ilə mübarizə aparmırdı. Millətinin ağır günlərində o, "Difai" özünümüdafiə təşkilatı yaratdı. Bu təşkilat ermənilərin və çarizmin zülmlərindən cana doyan müsəlmanların haqqı uğrunda mübarizəyə qalxanları öz sıralarında birləşdirdi [2, s.17]. "İrşad" qəzetində Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Firudin bəy Köçərli, Ömər Faiq Nemanzadə və digər ziyalılar öz qələmi və yazıları ilə bu hərəkata dəstək verdilər.

1906-cı il fevralın 20-də Tiflisdə Qafqazın canişini Voronsov-Daşkovun təşəbbüsü ilə erməni-müsəlman sülh məclisi öz işinə başlayır. Əhməd bəy Ağaoğlu ermənilərin Qafqazda törətdikləri qanlı qarşıdurmalar zamanı meydana çıxan münaqişələri nizama salmaq məqsədi ilə Tiflisə, Qafqaz canişini İ.Vorontsov-Daşkovun yanına göndərilən doqquz nəfərlik nümayəndə heyətinin üzvlərindən biri olmuş və ermənilərlə danışıqlar zamanı Azərbaycan tərəfinin əsas söz deyəni, ittihamçısı qismində çıxış etmişdir. Məhz bu məsul məqamda Əhməd bəy Ağaoğlunun təbiətindəki mübarizlik, şərə qarşı

barışmazlıq, cəsarət və qətiyyət bütün kəskinliyi ilə üzə çıxmışdı. Millətin həqiqi liderlərə, iş görməyi bacaran insanlara ehtiyac yarandığı məqamlarda o, çox faydalı işlər görmüş və təsirli çıxışlar etmişdi. Azərbaycanlı nümayəndələr həmin məclisdə iğtişaşların baiskarlarının məhz erməni terrorçu təşkilatları olduqlarını faktlarla sübut etmişdilər.

Əhməd bəy Ağaoğlu müsəlmanlara qarşı kütləvi qırğınlar törədən erməni şövinistlərinə və onların havadarlarına cavab vermək məqsədi ilə Tiflisdən sonra Peterburqa gedir və orada mühüm görüşlər keçirir. Həmin görüşlərdə Rusiya hökuməti təmsilçilərinin "Siz nə üçün səsinizi çıxarmırdınız?, indiyə qədər özünüzü niyə göstərmirdiniz?" sualına Əhməd bəy belə cavab verir: "Bizim bütün şairlərimiz, yazıçılarımız, müdriklərimiz dinməməyi gənclərin ən böyük bəzəyi, qocaların müdriklik əlaməti kimi tərənnüm edirlər" [8, s.158].

Əhməd bəy Ağaoğlu dinmək, danışmaq, hərəkət etmək zamanının artıq çoxdan gəldiyini qeyd edərək milləti mücadiləyə çağırır və bildirirdi ki, XX əsr susmağı yox, təşkilatlanıb öz azadlığı və hüquqları uğrunda mübarizə aparmağı tələb edir. O, müasirlik prinsiplərinə, Avropa demokratik dəyərlərinə diqqəti yönəltməklə yanaşı, milli tarix və mədəniyyətin təbliğinə də xüsusi önəm verirdi. Mətbuatda nəşr etdirdiyi məqalələr onu həmin dövr üçün realist ictimai-siyasi xadim, təşəbbüskar ziyalı və fəal vətəndaş kimi fərqləndirirdi.

1918-ci ildə də erməni terror birləşmələri Zəngəzur qəzasında milli qırğınlar törətdilər. Onlar 115 Azərbaycanlı kəndini başdan-başa yandırıb külə döndərdilər. 3257 kişi, 2276 qadın, 2196 uşaq, 7729 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirmişdilər. 1060 kişi, 794 qadın və 485 uşağı isə ağır şikəstlik əzabına düçar etmişlər. Zəngəzur qəzası və ətraf kəndlərində 10068 nəfər günahsız soydaşımız öldürülmüş, yüzlərlə insanın taleyinə əbədi şikəstlik möhürü vurulmuş və əyalətdəki bütün milli mədəniyyət abidələri dağıdılıb yerlə-yeksan edilmişdi. Ermənilərin törətdiyi bütün bu cinayətkar aksiyalar Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məruzəsində, deputat Mirzəsadiq Axundzadənin Parlamentə göndərdiyi teleqramlarda da təsdiqlənir. Buradakı müsəlman əhalini çıxılmaz vəziyyətdə qoyan əsas məsələ ondan ibarət idi ki, bir tərəfdən erməni təcavüzü nəticəsində Zəngəzurun Şuşa və Cəbrayılla əlaqələri kəsildiyindən qəza tam blokada vəziyyətinə düşmüşdü. Digər tərəfdən isə erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı qəzada azərbaycanlıların qanına susayan Andronik Ozanyanın təpədən-dırnağa qədər silahlanmış erməni əsgərlərindən ibarət nizami ordusu var idi. Həmin ordunun Ərzurumda başladığı, Naxçıvanda, Çöyçə mahalında, İrəvanda davam etdirdiyi ağlasığmaz cinayətləri Zəngəzurda ən dəhşətli həddə çatmışdı. Andronik oradakı müsəlman əhalidən ya xristian dinini qəbul edib Ermənistan hökumətinə tabe olmağı, ya da bu ərazilərdən təcili surətdə çıxıb getməyi tələb edirdi. Qəzanın müsəlman əhalisi zəif silahlanmış olsalar belə qorxub-çəkinmədən: "Bura sizin kimi gəlmə ermənilərin yox, bizim qədim ata-baba torpağımızdır, son nəfəsimiz qalanadək onu tərk etməyəcəyik" – deyə vəhşi daşnak generalının haqsız tələblərinə qarşı öz kəskin etiraz səslərini ucaldıb ölüm-dirim savaşına atılsalar da, son nəticədə onlardan qat-qat güclü olan düşmənin cinayətkar aksiyalarının qurbanı oldular [7, s.4].

Mətbuatda azad fikrin, demokratik təfəkkürün formalaşması istiqamətində Əhməd bəy Ağaoğlunun digər mütərəqqi fikirli ziyalılarla birgə fəaliyyəti öz bəhrəsini verdi və şərqdə ilk demokratik respublika məhz Azərbaycanda yaradıldı.

1918-ci ilin 26 dekabr tarixində AXC-nin Parlamentinin beşinci iclasında Əhməd bəy Ağaoğlu Cümhuriyyətin xarici dövlətlər tərəfindən tanınmasından qabaq müstəqilliyi daxili qüvvələrə tanıtmağın vacibliyini vurğuladı. Buna görə də daxili və xarici düşmənləri məhv edəcək bir hökumətin yaradılması təklifini irəli sürdü. O deyirdi: "Möhtərəm əfəndilər! Erməni-müsəlman münasibəti və bütün Zaqafqaziya millətlərini barışdırmaq üçün hökumətin öz deklarasiyasını həyata tətbiqində əzmkar olmasını diləriк" [1, s.56].

## Nəticə / *Conclusion*

1918-ci il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfrasında iştirak etmək üçün təşkil etdiyi nümayəndə heyətinin tərkibi təsdiqlənir. Əlimərdan bəy Topçubaşo-

vun rəhbərlik etdiyi nümayəndə heyətinə Ağaoğlu da daxil idi. 9 yanvar 1919-cu ildə Ağaoğlu və nümayəndə heyətinin digər üzvləri xüsusi qatarla Bakıdan Tiflisə yola düşdülər. Vağzalda nümayəndə heyətini Fətəli Xan Xoyskinin rəhbərliyi ilə parlament üzvləri və ictimai siyasi nümayəndələr yola salırlar. Təəssüf ki, İngilis tribunalı İstanbulda Əhməd bəy Ağaoğlunu həbs edərək Fransaya getməsinə imkan vermir. Beləcə fransız dilini mükəmməl bilən, Sorbona Universiteti məzunu Əhməd bəy Ağaoğlu Paris sülh konfransında iştirak etmək hüququndan məhrum edilir. Əslində, ermənilərin təhriki ilə İngilislərin bu hərəkəti Azərbaycanın haqq səsinin qundaqda boğulması demək idi. Ancaq belə bir deyim də var. Haqq nazilər, ancaq üzülməz. İki illik Malta sürgünündən sonra Əhməd bəy Ağaoğlu ictimai-siyasi fəaliyyətini Ankarada yenidən davam etdirdi. Qazi Mustafa Kamal Atatürkün yanında Türkiyə və türk dünyası üçün böyük xidmətləri oldu. Onun elmi, ədəbi-publisistik fəaliyyəti bir institutun gördüyü işlərə bərabər idi. "Türklük – bölünmə qəbul etməyən bir tamdır. Məqsəd ona xidmətdir. Harada olursa-olsun, ona xidmət etmək müqəddəsdir, mübarəkdir" deyən Əhməd bəy Ağaoğlunun ideya və görüşləri, əqidə və amalı bu gün də yaşayır.

**Ədəbiyyat / *References***


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, 1998. – 427 s.
2. Əzizov E. "Difai". Bakı, 2009. – 198 s.
3. "İrşad" qəzeti, 23 iyul 1906, № 172.
4. "İrşad" qəzeti, 1906, 9 yanvar, № 17.
5. "Kaspi" qəzeti, 1904, 25 noyabr, № 264, 1905, 25 yanvar, № 19.
6. Mirəhmədov Ə. "Əhməd bəy Ağaoğlu". Bakı, 2014. – 264 s.
7. Vəfa Z. "Zəngəzur faciələri". "Azərbaycan" qəzeti, 2011, 31 mart.
8. Yaqublu N. "Əhməd Ağaoğlunun Azərbaycan ictimai-siyasi mühitinə gətirdiyi yeni dəyərlər". Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları. Bakı, 2-3 oktyabr 2019-cu il. – 485 s.


## Реальность Зангезура в публицистической деятельности Ахмед бека Агаоглу

**Махир Гарибов**
Докторант Бакинского Государственного Университета
E-mail: mahir_garibov@yahoo.com
Orcid id: 0009-0002-8183-5802

**Резюме.** В начале XX века одной из личностей, сыгравших значительную роль в формировании национальной государственности в Азербайджане, был Ахмед бек Агаоглу. Высокообразованный политик и эрудит Ахмед бек Агаоглу, ведя широкую деятельность в деле просвещения народа, как политик и журналист был защитником не только кавказских мусульман, но и Передней Азии и охватывающую более широкую географию проживания всех турок-мусульман. Национальное мышление всегда было для него на переднем плане. В 1918 году он был избран в Парламент Азербайджанской Демократической Республики депутатом от Зангезура. Помимо активной деятельности в Парламенте, Ахмед бек Агаоглу был выбран одним из представителей для участия в Версальской Мирной Конференции. Наряду с глубоким знанием европейских демократических ценностей и турецкой истории и культуры, он придавал большое значение и пропаганде национальной культуры.
**Ключевые слова:** история азербайджанской прессы, газета «Каспи», газета «Хаят», реальность Зангезура, защитники демократии и национальной мысли, парламентская деятельность Агаоглу